# Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir

## Bakıda bu gün Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası başlayır

**Bakı növbəti mötəbər beynəlxalq tədbirə evsahibliyi edir. Bu gündən paytaxtımızda Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyası başlayır.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, fevralın 24-dək davam edəcək sessiyada 40-dək ölkənin parlament nümayəndə heyəti, o cümlədən 10-a yaxın ölkənin spikeri iştirak edəcək.

5

2024.- 21 fevral, № 39.- S.1, 5.

AZƏRBAYCAN

# Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir

## Bakıda bu gün Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası başlayır

*Əvvəli 1-ci səh.*

"Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunmuş sessiya çərçivəsində qurumun İcraedici Şurasının, plenar sessiyasının, siyasi, iqtisadi, büdcə, sosial və mədəni sahələrə dair komitələrinin iclasları keçiriləcək, müvafiq məsələlər müzakirə olunacaq, bir sıra təşkilati məsələlərə baxılacaq. Sessiyanın sonunda Bakı Bəyannaməsi və APA-nın yekun hesabatı qəbul ediləcək.

Xatırladaq ki, ötən il Türkiyənin Antalya şəhərində APA-nın İcraedici Şurasının iclasında Azərbaycan 2024-2025-ci illər üzrə qurumun sədri seçilib. Buna qədər isə assambleyaya Türkiyə sədrlik edib. Qurumun bundan əvvəlki "Dəyişən qlobal dinamiklərdə çoxtərəfliliyin təşviqi" mövzusunda 13-cü plenar sessiyası da ötən ilin yanvar ayında Türkiyədə keçirilmişdi.

Parlament əməkdaşlıq platformaları müxtəlif dövlətlərin qanunvericilik orqanlarının təmsilçilərini qlobal narahatlıq doğuran problemlərin həlli yollarını tapmaq məsuliyyətinin və daha yaxşı dünya naminə birlikdə işləmək əzminin təzahürüdür. Bu mənada APA da Asiya dövlətlərini parlamentlərarası əməkdaşlıq formatında bir çətir altında birləşdirən beynəlxalq təşkilatdır. Bu assambleyanı Asiya qitəsində və dünyada əməkdaşlığın, sülhün və sabitliyin möhkəmləndirilməsinə nail olmaq məqsədilə cari problemlərin və çağırışların həlli üçün ümumi səyləri səfərbər edən parlament diplomatiyası platforması da adlandırmaq olar. Təşkilatın müxtəlif sahələrdə həmrəyliyin təşviqinə və əməkdaşlığın inkişafına yönəlmiş fəaliyyəti xüsusi diqqətə layiqdir.

Azərbaycan Milli Məclisi ilə APA arasında uzun müddətdir ki, sıx əməkdaşlıq mövcuddur. Milli Məclisin nümayəndə heyəti hər zaman APA-nın tədbirlərində yaxından iştirak edib. 2023-cü ilin sentiyabr ayında isə Bakıda APA-nın Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclası keçirilib. İclasda müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edib, o cümlədən Azərbaycanın irəli sürdüyü "Qadınlar üzrə Komissiya haqqında" qətnamə layihəsi təsdiqləqnib. Bu qətnamə həm də onu göstərib ki, Azərbaycan APA-nın fəaliyyətinə öz töhfələrini verir.

Fevralın 7-də respublikamızda keçirilən prezident seçkilərində APA-nın müşahidə missiyası da iştirak edib. APA-nın Baş katibi Məhəmməd Rza Məcidinin başçılıq etdiyi missiya keçirdiyi mətbuat konfransında növbədənkənar prezident seçkilərinin yüksək səviyyədə keçirilməsinin şahidi olduğunu bəyan edib.

Bakıda keçirilən APA-nın 14-cü plenar sessiyası qəbul ediləcək qərarlar baxımından qurumun tarixində mühüm və əlamətdar hadisə kimi qalacaq. Ən əsası, bu tədbir ölkəmizi və uğurlarımızı, o cümlədən qalibiyyətimizi bir daha dünyaya bəyan edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***